# Azərbaycanın Firavan Gələcəyi Naminə
# İqtisadiyyatda Əsas və Təxirəsalınmaz Tədbirlər Paketi
## Böhran əleyhinə 8 istiqamətdə 64 addım Planı

Son illər dünya əmtəə bazarlarında müşahidə olunan qiymət dəyişiklikləri milli iqtisadiyyatı resurs gəlirlərindən asılı olan ölkələr, o sıradan da Azərbaycan üçün bir sıra risklər və təhlükələr yaradır. Bununla yanaşı, ölkəmizin yerləşdiyi regionda baş verən proseslər, o cümlədən, Rusiya-Ukrayna, Rusiya-Türkiyə qarşıdurmaları regional iqtisadi inteqrasiyanı çətinləşdirməklə yanaşı onun xərclərini də artırır. Eyni zamanda, qlobal səviyyədə ABŞ-Rusiya və ABŞ–İran münasibətlərinin regionda yaratdığı hazırkı mürəkkəb və ziddiyyətli müstəvidə Azərbaycan üçün yeni çağırışlar və çətinliklər meydana çıxır. Odur ki, həm regional və həm də qlobal müstəvidə zəifləyən inteqrasiya münasibətlərində Azərbaycanın mövqelərini qoruması, daxildə dayanıqlı sosial-iqtisadi sistemin qurulması hazırda respublika üçün həlli vacib olan vəzifələrdən sayılır. Bu vəzifələrin icrası ilk növbədə nomenklatur-oliqarx hökümətindən açıq və hesabatlı hökümətə, mono-resurs iqtisadiyyatından şaxələnmiş qeyri-neft modelinə, inhisarçı məmur biznesindən azad və rəqabətli sahibkarlığa, getdikcə təbəqələşən və yoxsullaşan sosial sistemdən təminatlı rifah cəmiyyətinə keçidin sürətindən və keyfiyyətindən asılıdır.

Beynəlxalq təcrübə göstərir ki, çağdaş sosial-iqtisadi problemlərin uğurla həll edilməsi azad sahibkarlığın təşəkkülü və inkişafı üçün zəruri olan bazar iqtisadi sisteminə transformasiya proseslərindən, iqtisadiyyatın liberallaşdırılmasından, çevik və şəffaf dövlət idarəedilməsi vasitəsilə rəqabətin tam dəstəklənməsindən asılıdır. Bu isə ilk növbədə, öncül və strateji iqtisadi inkişaf istiqamətləri üzrə çeşidli proqramlar və konsepsiyaların işlənilməsini və onların ictimai müzakirəsini zəruri edir.

Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı bu zərirəti və şərəfli missiyasını dərk edərək, onun gerçəkləşdirilməsinə nail olmaq üçün özündə milli və dövlətçilik maraqlarını

nəzərə alan, beynəlxalq sistemə səmərəli inteqrasiyasını təmin edən, postneft dövrünün ehtiyaclarını əsas götürərək Azərbaycan dövlətinin inkişaf siyasətinin prioritetlərini əks etdirən bir sıra proqramlarla çıxış etməyi və ölkənin inkişaf perspektivlərinin konseptual əsaslarnı hazırlamağı qarşıya əsas vəzifə kimi qoyub.

Bu məqsədlə də ADR Hərəkatı hazırda müşahidə olunan yüksək inflyasiyanın, kütləvi işsizliyin, qeyri-məhsuldar dövlət xərcləmələrinin, fiskal disbalansın, tədiyə balansının kəsirinin, dayanıqsız milli valyutanın, mərkəzsizləşdirilməyən, tarazlaşdırılmayan və şaxələnməyən iqtisadiyyatın yaratdığı sosial-iqtisadi problemlərlərin genişlənməsini və dərinləşməsini nəzərə alaraq, İqtisadiyyatda Əsas və Təxirəsalınmaz Tədbirlər Paketini təqdim edir.

İqtisadiyyatda Əsas və Təxirəsalınmaz Tədbirlər Paketi hazırlanarkən qərarlaşmış tendensiyalar və dünya bazarında konyuktur dəyişiklərin təsirləri, mövcud və perspektiv resurslar nəzərdən keçirilmiş və mütərəqqi dünya təcrübəsi əsas götürülmüşdür. Tədqim olunan tədbirlər paketi 3 il üçün Azərbaycan Respublikasının iqtisadi və sosial siyasətinin əsas istiqamətlərini müəyyən edir. Bu tədbirlərin yerinə yetirilməsi növbəti 1 ildə bazar infrastrukturunun formalaşdırılması yolu ilə milli iqtisadiyyatın sağlamladırılmasına, sonrakı ildə bazar institutlarının təşəkkülünə və səmərəli fəaliyyətinə, nəhayət, sonuncu ildə davamlı iqtisadi inkişaf və sosial rifaha təminat verir. Tədbirlər Paketinin icrasına başlanması planlaşdırılan 2016-cı il Azərbaycan üçün sosial-iqtisadi baxımından daha çətin il hesab olunsa da, iqtisadiyyatda dönüş üçün həlledici sayılır. Dünya Bankının qiymətləndirmələrinə görə, bu il Azərbaycanda 0,8 faiz iqtisadi artım gözlənilir. Bu artım regional və qlobal kontekstdə aşağıdakı mənzərəni yaradır.

| | Dünya üzrə | ABŞ | Avro zona üzrə | Bazar iqtisadiyyatını formalaşdıran ölkələr üzrə | Çin | Azərbaycan | Rusiya |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-in artımı | 3,6 | 2,8 | 1,6 | 4,5 | 7,3 | 0,8 | -0,6 |

Göründüyü kimi, Rusiya istisna olmaqla, cari ildə ən aşağı artım göstəricisinin Azərbaycanda qeydə alınması gözlənilir. Ötən ildən başlayan artımın azalma tendensiyanın davamlı olub, eniş səviyyəsinə düşməsinə yol verməmək üçün Azərbaycan iqtisadiyyatında bu paketdə təqdim

olunan təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi çox vacibdir. Təqdim olunan Tədbirlər paketi Azərbaycan iqtisadiyyatında müşahidə olunan aşağıdakı problemlər nəzərə alınmaqla işlənilib.

- İnhisarçılığın daxili bazarda hökmran mövqe tutması səbəbindən istehsal olunan yerli məhsulların, göstərilən xidmətlərin keyfiyyətinin aşağı olması, müasir standartlardan geri qalması səbəbindən qeyri-neft ixracat potensialının zəifliyi;
- Azad sahibkarlıq fəaliyyətinə tənzimləyici və nəzarəteici dövlət orqanlarının haqsız və yersiz müdaxilələrinə, onlara səmərəli maliyyə-kredit xidmətlərinin göstərilməməsinə görə işgüzar fəallığın aşağı düşməsi;
- Dövlət sifarişləri üzrə satınalmaların, tenderlərin qeyri-şəffaf, korrupsiya mənbəyi olması ucbatından qiyməti şişirdilərək keyfiyyətsiz icra olunan infrastruktur layihələrinə ayrılan xərclərin səmərəsizliyi;
- Əlavə maliyyə qaynaqlarının məhdudluğu və valyuta bazarında tarazlığın pozulması səbəbindən milli valyutanın dəyərdən düşməsi;
- Əhalinin gəlirlərinin dəyərsizləşməsi və alıcılıq qabliyyətini itirməsi, iş yerlərinin bağlanması, istehlak qiymətlərinin artması səbəbindən sosial vəziyyətin pisləşməsi.

Sadalanan problemləri nəzərə alan, onların həllini məqsədilə transformasiya proseslərini özündə ehtiva edən Paket aşağıdakı 8 başlıca istiqamətdən ibarətdir:

- Hədəfi çevik və açıq hökümət olan idarəetmədə struktur islahatları;
- Hədəfi iqtisadi münasibətləri tənzimləmək olan institutsional islahatlar;
- Hədəfi aşağı inflyasiya və dayanıqlı milli valyuta olan pul-kredit və bank islahatları;
- Hədəfi tarazlı və səmərəli büdcə sistemi olan vergi-tarif və fiskal islahatlar;
- Hədəfi yeni iş yerlərinin yaradılması olan sərbəst qiymətqoyma, açıq ticarət və ədalətli rəqabət üzərində qurulan sahibkarlıq islahatları;
- Həfəfi regionların tarazlı işkişafı və milli iqtisadiyyatın modernləşdirilməsi olan aqrar və sənaye-struktur islahatları;
- Hədəfi firavan və təminatlı cəmiyyət olan sosial reabilitasiya və inkişaf islahatları;
- Hədəfi Azərbaycanın dünyada və regionda maraqlarlna toxunan prosesləri aktiv və səmərəli sürətdə tənzimləyən milli iqtisadi təhlükəsizlik islahatları.

**Növbəti 3 il üçün əsas və təxirəsalınmaz tədbirlər paketi aşağıdakı formatda təqdim olunur:**

| NN | Tədbirlər | İcrasına məsul olan orqanlar | Tələb olunan sənədlər | Müddət | Gözlənilən nəticələr |
|---|---|---|---|---|---|
| | | **1. İdarəetmədə struktur islahatları** | | | |
| **1.1.** | Nazirlər Kabinetinin rasional, səmərəli və məhsuldar strukturunun müəyyənləşdirilməsi və təsdiqi | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Azərbaycan Respublikası Nazirlər Kabineti haqqında Əsasnamənin yeni redaksiyası | 2016-cı ilin 1-ci rübü | Dövlət büdcəsinin idarəetmə xərclərinin optimallaşdırılması.<br>12 nazirliyin,<br>6 komitənin, 9 agentliyin,<br>8 xidmətin saxlanılması |
| **1.2.** | Çevik və islahatçı hökümət komandasının formalaşdırılması | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Azərbaycan Respublikası Prezidentinin fərmanları | 2016-cı ilin 1-ci rübü | Biznes və siyasi rəhbərliyin bir-birindən ayrılması |
| **1.3.** | Açıq və hesabatlı hökümətin qurulması | Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Aparatı | Açıq Hökümət Tərəfdaşlığı üzrə Milli Fəaliyyət Planı | 2016-2018-ci illər ərzində | Yaxşı idarəetmənin təşkili |
| **1.4.** | Bakı şəhər İcra Hakimiyyətinin ləğvi və onun bazasında seçkilər yolu ilə formalaşan mer institutunun yaradılması | Azərbaycan Respublikası Prezidentinin fərmanı | «Paytaxt şəhərinin status və idarə olunması haqqında» Əsasnamə, Yerli Özünüidarə haqında Avropa | 2016-cı il ərzində | Dövlət xərclərinin optimallaşdırılması, Bakı şəhərinin maliyyə müstəqilliyinin təminatı |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | Xartiyası | | |
| **1.5.** | Naxçıvan Muxtar Respublikasının idarəetmə strukturunun optimallaşdırılması və təkrarlanan qurumların ləğvi | Azərbaycan Respublikası Prezidenti | Naxçıvan MR-ın Konstitusiyasında dəyişikliklər, Naxçıvan MR-ın Ali Məclisinin qərarları | 2016-c il ərzində | Dövlət xərclərinin optimallaşdırılması, idarəetmə fəaliyyətinin funskionallaşdırılması |
| **1.6.** | Yerli icra hakimiyyətlərinin ləğvi və onların funksiyalarının yenidən seçilən rayon və şəhər bələdiyyələrinə ötürülməsi | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Azərbaycan Respublikası Konstitutsiyasında dəyişiklik | 2017-ci il | Əksər rayonların maliyyə müstəqilliyinin təmin olunması və regional idarəetmə xərclərinin ixtisarı |
| **1.7.** | Yerli icra nümayəndəliklərinin ləğvi və onların funskiyaları və səlahiyyətlərinin kənd və qəsəbə bələdiyyələrə verilməsi | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Yerli icra hakimiyyətləri haqqında Əsasnaməyə dəyişiklik | 2016-cı il | Yerli idarəetmə xərclərinin ixtisarı |
| **1.8.** | Dövlət şirkətlərində korporativ idarəetmə və nəzarət sisteminin qurulması | İri vergi ödəyiciləri olan dövlət şirkətləri | "Korporativ İdarəetmə Məcəlləsi" qəbul olunması. | 2016-ci ilin 2-ci rübü | Dövlət sahibkarlığının idarəolunmasının yaxşılaşdırılması |
| **2. İnstitutsional islahatlar** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.1.** | Azərbaycan Respublikası Prezidenti yanında yerli ekspertlər və sahibkarların təmsilçiliyi ilə İslahat şurasının yaradılması | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Azərbaycan Respublikası Prezidentinin fərmanı | 2016-cı ilin 1-ci rübü | İslahatlara ictimai etimadın formalaşdırılması |
| **2.2.** | Milli Məclisdə büdcə, hökümətin hesabatı və digər önəmli məsələlərə dair ictimai dinləmələrin keçirilməsi | Milli Məclisin müvafiq komitələri | Milli Məclisin qərarı | 2016, 2017 və 2018-ci illər ərzində | Qərarlaırn qəbulundə ictimai iştirakçılığın təmini |
| **2.3.** | Dövlət Neft Fondunun Müşahidə Şurasında ictimai təşkilatların təmsilşiliyinin təmin edilməsi | Azərbaycan Respublikasının Prezidenti | Azərbaycan Respublikasının Prezidentinin fərmanı | 2016-cı ilin 1-ci rübü | Neft Fondunun idarəedilməsində şəffaflığın və hesabatlılığın artırılması |
| **2.4.** | İnvestorların hüquqlarını qoruyan Ombudsman institutunun formalaşdırılması | Azərbaycan Respublikasının Prezidenti | Azərbaycan Respublikasının Prezidentinin fərmanı | 2016-cı ilin 1-ci rübü | İnvestorların kapitalına təminatın artırılması, onların şikayətlərinin çevik həlli |
| **2.5.** | Tarif (qiymət) Şurasının tənzimlədiyi qiymətlərin (tariflərin ) sərbəstləşdirilməsi | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi | Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Tarif Şurasının ləğvi | 2018-ci il ərzində | Qiymətlərin sərbəstləşdirilməsi və bazar mexanizmlərinin işə salınması |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| **2.6.** | Dövlət-biznes tərəfdaşlığı ilə bağlı normativ-hüquqi baza formalaşdırılması | Milli Məclis | "Dövlət-biznes tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanunun qəbulu | 2016-cı ilin 2-ci rübü | Özəl sektorun kapitalının cəlb olunması, Dövlət-biznes tərəfdaşlığı layihələrinin idarə olunmasında şəffaflığın artırılması |
| **2.7.** | Dövlət məmurlarının gəlirləri və əmlakı haqqında bəyannamənin qəbulu və açıqlanması | Nazirlər Kabineti | Dövlət məmurlarının gəlirləri və əmlakı haqqında bəyan namənin formasının təsdiqi | 2016-cı ilin 1-ci rübü | Korrupsiya, rüşvətxorluq, qanunsuz gəlirlər və çirkli pulların yuyulması ilə mübarizənin güclənilməsi |
| **2.8.** | Azərbaycan Respublikası Prezidenti yanında yerli ekspertlər və sahibkarların təmsilçiliyi ilə İslahat şurasının yaradılması | Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyası | Azərbaycan Respublikası Prezidentinin fərmanı | 2016-cı ilin 1-ci rübü | İslahatlara ictimai etimadın formalaşdırılma sı |
| **2.9.** | Ayrı-ayrı nazirliklərin nəzdində aşağıdan formalaşan ictimai şuraların yaradılması | Vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə seçkilər | "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasımı n Qanunu | 2016-cı il ərzində | Mərkəzi icra hakimiyyətlərin in şəffaflığının artırılması |

| | | | | | |
|---|---|---|---|---|---|
| **2.10.** | Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə proqram və texniki əməkdaşlığın, kredit münasibətlərinin səmərəliliyinin artırılması | Maliyyə Nazirliyi Mərkəzi Bank | Strateji Əməkdaşlığa dair Memorandum | 2016-2018-i illər | İslahatlara texniki dəstəyin göstərilməsi |
| **2.11.** | Dövlət əmlakının xarici investorların iştirakı ilə özəlləşdirilməsi | Dövlət Əmlak Komitəsi | Prezidentin fərmanları Nazirlər Kabinetinin qərarları | 2016-2018-i illər | Əlavə maliyyələşmə və modernləşdirmə imkanlarının əldə edilməsi |
| **3. Pul-kredit və bank islahatları** | | | | | |
| **3.1.** | Üzən məzənnə siyasətinə tam keçidin təmin olunması | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı il ərzində | Manatın digər valyutalara nəzərən real məzənnəsinin müəyyənləşdirilməsi və ona etimadın bərpa olunması |
| **3.2.** | Dövlət Neft Fondunun daxili bazara yönəlik xərcləmələrinin valyuta birjasında hərraclar vasitəsilə manata transformasiyası | ARDNF, Mərkəzi Bank, Banklararası Valyuta Birjası | ARDNF-nin 2016-cı il büdcəsi haqqında Qanun | 2016, 2017, 2018-ci il illər ərzində | Manata olan təzyiqın azaldılması, valyutanın sterilizasiyası |
| **3.3.** | Mərkəzi Bank nəzdində "Şübhəli və ümidsiz borclar üzrə Agentlik" yaradılması | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı ilin 1-ci rübündə | Kommersiya banklarının və bank olmayan kredit |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | təşkilatlarının ümidsiz borclarının satın alınması yolu ilə problemli borcların restrukurizasiyası |
| **3.4.** | Borclarını ödəmək qabliyyətində olmayan fiziki şəxslərə kredit tətillərinin verilməsi | Milli Məclis, Mərkəzi Bank, İqtisad Məhkəmələri | "Fiziki şəxslərin (vətəndaşların) müflişməsi" haqqında ayrıca qanunun qəbulu, Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı ilin 1-ci rübündə | Fiziki şəxslər özlərini müflis elan edib, ərizəsini və müvafiq sənədlərini (borclarının yenidən strukturlaşması planı və s. ) məhkəmələrə təqdim etməklə, 1 ildən 5 ilədək kredit tətilləri ala bilməsi. |
| **3.5.** | Bankların məcmu kapitalına olan tələbin artırılması yolu ilə onların təmərküzləşməsi siyasətinin davam etdirilməsi | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı ilin 1-ci rübündən başlayaraq müntəzəm | Bank sisteminə olan etimadın artırılması və risklərin idarə olunması |
| **3.6.** | Bankların birləşməsi yolu | Mərkəzi Bank | Müflisləşməkdə | 2016-cı il | Bankların |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ilə onların konsolidasiyası və sağlamlaşdırılması siyasətinin davam etdirilməsi | | olan bankların ləğvi üçün hüquqi bazanın təkmilləşdirilməsi | ərsində | restrukturizasiyası |
| **3.7.** | "Azeksimbank" dövlət xarici ticarət bankının yaradılması | Mərkəzi Bank və Neft Fondu | Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı | 2016-cı ilin 1-ci rübü | Xarici ticarət əməliyyatlarının maliyyələşdirilməsi və ixracatın kreditləşdirilməsi |
| **3.8.** | Kommersiya banklarının investisiya məqsədləri üçün ayırdıqları kreditlərə güzəştlərin tətbiqi | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı il ərzində | İnvestisiya fəaliyyətinin stimullaşdırılması |
| **3.9.** | Sərbəst dönərli valyuta üzrə açıq valyuta mövqeyinin artırılması, kommersiya banklarının valyuta əməliyyatların liberallaşdırlması | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı il ərzində | Valyutanın bazarının iştirakçılarının müstəqilliyinin artılması və sərbəstləşdirilməsi |
| **3.10.** | Nagdız hesablaşmaların və on-line bank hesablaşmalarının stimullaşdırılması | Mərkəzi Bank | Mərkəzi Bankın İdarə Heyətinin qərarı | 2016-cı il ərzində | Hesablaşmaların leqallaşdırılması və təhlükəsizliyinin təmini |
| **3.11.** | Kapitalın mobilliyi və hərəkəti, habelə institusional və portfel | Qiymətli Kağızlar üzrə Dövlət | Qiymətli kağızlar bazarı haqqında | 2016-cı il ərzində | Qiymətli kağızlar bazarının |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sərmayələrin cəlb edilməsini təmin edən qiymətli kağızlar bazarı infrastrukturunun yaradılması | Komitəsi, Bakı Fond Birjası | Azərbaycan Respublikasının Qanununun və müvafiq normativ-hüquqi aktlar | | inkişafı |
| **4. Vergi-tarif və fiskal islahatlar** | | | | | |
| **4.1.** | Ümumi vergi amnistsiyasının verilməsi | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | Azərbaycan Respublikası Prezidentinin Fərmanı | 2016-cı ilin 1-ci rübü | Qanunsuz və ədalətsiz vergi cərimələri hesablanan vergi ödəyicilərinin əlavə yüklərinin azaldılması |
| **4.2.** | Vergilərin sayının və dərəcələrinin optimallaşdırılması | Azərbaycan Respublikası Vergilər Nazirliyi | Vergi Məcəlləsinin təkmilləşdirilməsi | 2016-cı il il ərzində | Vergi bazasının genişləndirilməsi və yığım səviyyəsinin artırılması |
| **4.3.** | Vergi idarəçiliyinin təkmilləşdirilməsi, Vergi odəyicilərinin hüquqlarının artırılması | Azərbaycan Respublikası Vergilər Nazirliyi | Vergi Məcəlləsinin təkmilləşdirilməsi | 2016-cı il il ərzində | Vergi ödəyicisinin müstəqilliyinin artırılması |
| **4.4.** | Vergi ödəyicilərinin ödənişləri haqqında məlumatların əlçatanlığının təmin olunması | Azərbaycan Respublikası Vergilər Nazirliyi | “Kommersiya sirri” haqqında Qanuna müvafiq dəyişikliklərin edilməsi | 2016-cı ilin 1-ci rübü | Vergilər barədə şəffaflığın təminatı və vergi ödəyicilərinin fəaliyyətinin stimallaşdırılması |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.5.** | Patent vergi sisteminin (PVS) tətbiqi | Azərbaycan Respublikası Vergilər Nazirliyi | Vergi Məcəlləsinin təkmilləşdirilməsi | 2016-cı il il ərzində | PVS-nin tətbiqi vasitəsilə xırda vergi ödəyicilərinin xərclərini azaldılması, onlarla vergi müfəttişləri arasında ünsiyyəti minumumlaşdırılması |
| **4.6.** | Gömrük dəyərinin müəyyən edilməsi üçün tətbiq edilən eyni və ya eynicinsli malların qiyməti haqqında məlumatların siyahısı Dövlət Gömrük Komitəsi tərəfindən deyil, İqtisadiyyat Nazirliyi tərəfindən tərtib və təsdiq edilməsi | Azərbaycan Respublikası Nazirlər Kabineti, İqtsiadiyyat Nazirliyi, Dövlət Gömrük Komitsəi | Gömrük Məcəlləsində, “Gömrük Tarifi haqqında Qanun”da «Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları»nda dəyişiklik | 2016-cı ilin 1-ci rübü | Gömrük orqanları tərəfindən təqdim olunan qiymət informasiyalarına deklarantların əvvəlcədən və sərbəst çıxışının təmin edilməsi. |
| **4.7.** | Dövlət büdcəsinin xərclər hissəsinin nəticələrə | Maliyyə Naziriiyi | Büdcə Məcəllsəinin | 2016-cı il ərzində | Xərclərin səmərəliliyi və |

| | | | | | |
|---|---|---|---|---|---|
| | əsaslanan proqramlar üzrə təsnifatı | | qəbulu, Maliyyə Nazirliyinin kollegiyasının qərarı | | xərcləmələrin şəffaflığının artırılması |
| **4.8.** | Hesablama Palatası Neft Fondunun maliyyə əməliyyatları üzrə tövsiyələrin hazırlaması və bu tövsiyələr Parlamentdə müzakirə olunması | Hesablama Palatası | "Hesasblama Palatası haqqında" Qanun | 2016-ci il ərzində | ARDNF-nin büdcəsinin şəffaflığının artırılması |
| **4.9.** | ARDNF büdcəsndən strateji layihələrin birbaşa maliyyələşdirilməsi praktikasına son qoyulması, bütün ödəmələrin vahid büdcə təsnifatına daxil edilməsi | Maliyyə Nazirliyi | Azərbaycan Respublikası Prezidentinin fərmanı | 2017-ci il ərzində | Neft gəlirlərinin xərclənməsinin şəffaflığının artırılması |
| | | **5. Sahibkarlıq islahatları** | | | |
| **5.1.** | İdxalı əvəz edən yerli istehsal sahələrinin və onların ixrac potensialının müəyyənləşdirilməsi üçün klaster yanaşması üzrə tədqiqatların aparılması | İqtisadiyyat Nazirliyi | Müstəqil ekspertlərdən ibarət tədqiqat qrupunun yaradılması | 2016-ci il ərzində | Strateji sahələrin müəyyənləşdirilməsi və sərmayələrin daxili bazarda səmərəli paylanması |
| **5.2.** | Sahibkarları müasir bazar konyukturasında rəqabət aparmasına yardım etmək üçün biznes inkişaf xidmətlərinin genişləndirilməsi | İqtisadiyyat Nazirliyi, Sahibkarlar Assosiasiyaları | Peşəkar təlim mərkəzlərinin proqramları | 2016-ci il ərzində | Sahibkarların bilik və bacarıqlarının artırılması |

| | | | | | |
|---|---|---|---|---|---|
| **5.3.** | Xarici bazarlara mal və xidmət çıxarmaq imkanlarına malik olan sahibkarlar üçün stimullaşdırıcı ixracat Planının hazırlanması və onların xaricdəki tanıtım fəaliyyətlərinə, yatırımlarına görə dövlətin dəstəyinin göstərilməsi | İqtisadiyyat Nazirliyi. Sahibkarlar Assosiasiyaları | Prezidentin fərmanları | 2016-ci ilin 1-ci rübü ərzində və davamlı olaraq sonrakı 3 ildə | Qeyri-neft məhsullarının ixracatının stimullaşdırılması |
| **5.4.** | Yeni yaranan və ya mövcud olan sahibkarlıq subyektlərinin əlavə yatırdığı sərmayələr üçün təşviq Planının hazırlanması | İqtisadiyyat Nazirliyi, Sahibkarlar Assosiasiyaları | Prezidentin fərmanları | 2016-ci ilin 1-ci rübü ərzində və davamlı olaraq | İdxalı əvəz edən qeyri-neft bölməsinin fəaliyyətinin stimullaşdırılması |
| **5.5.** | Yerli məhsulların ixracı zamanı mənşə, keyfiyyət sertifikatlarının və təsdiqedici kod nömrəsinin verilməsinin ASAN xidmətə həvalə olunması | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Prezidentin fərmanları | 2016-ci ilin 1-ci rübü ərzində və davamlı olaraq | Müvafiq sənədlərə çıxışın asanlaşdırılması və antikorrupsiya tədbirlərinin təmini |
| **5.6.** | İstehsalçının buraxdığı məhsullara dair beynəlxalq standartlara uyğun keyfiyyət və mənşə sertifikatlarının mərkəzləşdirilmiş şəkildə gömrük orqanlarına təqdim olunması, eləcə də | Azərbaycan Respublikası İqtsiadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi | "Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi Qaydalarının | 2016-ci ilin 1-ci rübü ərzində | İdxal əməliyyatlarının sadələşdirilməsi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ölkələr arasında standartların qarşılıqlı formada tanınması ilə həmin məhsulların idxalını həyata keçirən şirkətlərin müvafiq sənədləri təqdim etmək tələbindən azad edilməsi | | təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin **14 yanvar 2014-cü il** tarixli 3 nömrəli **qərarında dəyişiklik edilməsi** | | |
| **5.7.** | Maliyyə mənbələrinin əlçatan olmasını təmin etmək üçün Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətində şəffaflığın artırılması | İqtisadiyyat Nazirliyi, Sahibkarlığa Kömək Milli Fondu | Sahibkarlığa Kömək Milli Fondunin vəsaitlərindən istifadə qaydalarının təkmilləşdirilməsi | 2016-ci ilin 1-ci rübü ərzində | Sahibkarlığa Kömək Milli Fondunin güzəştli kreditlərinə çıxış imkanlarının artırılması |
| **5.8.** | Xarici investisiyaların cəlbi məqsədilə milliləşdirmə, özgəninkiləşdirmə və oxşar nəticələrə gətirib çıxaran hər hansı digər tədbirlərin görülməyəcəyinə və bu cür şəraitin yalnız milli təhlükəsizlik səbəblərindən zəruri olduğu hallarda ədalətli kompensasiyanın təmin ediləcəyinə zəmanətin | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi | "Xarici investisiyaların qorunması haqqında" Qanunun yeni redaskiyada qəbulu | 2016-ci ilin 1-ci rübü ərzində | Xarici sərmayələrin cəlb edilməsi üçün təminatların yaranması |

| | | | | | |
|---|---|---|---|---|---|
| | verilməsi | | | | |
| **5.9.** | Xarici investorların cəlb edilməsi məqsədilə viza siyasətinin liberallaşdırılması | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | “Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında” Azərbaycan Respublikasının Qanunu | 2016-cı il ərzində | İşçi vizasının sadələşdirilməsi yolu ilə ölkəyə gediş-gəlişin asanlaşdırılması |
| **5.10.** | Qanunla tələb olunan vergilərin və ödənişlərin ödənilməsindən sonra gəlirləri xarici valyutada digər ölkələrə köçürmək üçün bütün məhdudiyyətlər aradan qaldırılması | Mərkəzi Bank | “Valyuta tənzimi haqqında” Qanunun təkmilləşdirilməsi | 2016-ci ilin 1-ci rübü ərzində | Xarici investorların fəaliyyəti üçün təminatların yaranması |
| **6. Aqrar və sənaye-struktur islahatları** | | | | | |
| **6.1.** | Bölgələr arasında rəqabət mühitini təmin edən regional siyasətin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | 2014-2018-ci illərdə regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müvafiq dəyişikliklərin aparılması | Növbəti 3 il ərzində | Regionların İnkişaf göstəricilərinin yaxşılaşması |
| **6.2.** | Yerli kənd təsərrüfatı xammalının emalının və son məhsul istehsalını təmin edən emal, yüngül və yeyinti sənaye sahələrinin inkişafının stimullaşırılması | İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Sahibkarlığa Kömək Milli Fondu | Stimullaşdırıcı dövlət dəstəyi Planının hazırlanması | Növbəti 3 il ərzində | İdxalı əvəz edən yerli istehsalın inkişafı |
| **6.3.** | Regionlar üzrə | İqtisadiyyat | Tədqiqat qrupu | 2016-cı il | Dövlət |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sahələrarası balansın hazırlanması | Nazirliyi | | ərzində | proqramlarının koordinasiyası |
| **6.4.** | Yüksək texnologiyaların mənimsənilməsini təmin edən innovasiya siyasətinin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi | Yeni hüquqi bazanın formalaşdırılması | Növbəti 3 il ərzində | İstehsal müəssisələrinə texnoloji yardım |
| **6.5.** | Sənaye müəssisələrinin vergi və digər məcburi ödənişlər üzrə differensiallaşdırılması | İqtisadiyyat Nazirliyi | Vergi Məcəlləsi | Növbəti 3 il ərzində | İş yerlərinin açılmasında önəmli rol oynayan müəssisələrə müvafiq güzəştlərin verilməsi |
| **6.6.** | Birbaşa ixraca yönəlmiş sənaye sahələrinin stimullaşdırılması | İqtisadiyyat Nazirliyi | Azad İqtisadi Zonalara dair qanunvericilik | Növbəti 3 il ərzində | Əlavə qaynaqlar hesabına valyuta gəlirlərinin əldə edilməsi |
| **6.7.** | Klasterlərin yaradılması və kooperasiya əlaqələrinin inkişaf etdirilməsi | Kənd təsərrüfatı Nazirliyi | “Kənd təsərrüfatı kooperasiyası haqqinda” Qanunun qəbulu | Növbəti 3 il ərzində | Yerli məhsulların istehsalının stimullaşdıırlması |
| **7. Sosial reabilitasiya və rifah islahatları** | | | | | |
| **7.1.** | Qiymətlərin artımı ilə əlaqədar olaraq bütün növ əmək haqqı gəlirlərin, pensiyaların və sosial yardımların | Maliyyə Nazirliyi | “Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və | Növbəti 3 il ərzində | Əhalinin sosial müdafiəsinin gücləndirilməsi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | indeksləşdirilməsi | | əmanətlərinin indeksləşdirilməsi haqqında” Qanun | | |
| **7.2.** | Əməyin ödənilməsinin minumum məbləğinin gündəlik istehlak tələbi əsasında regionlar üzrə müəyyənləşdiirlməsi | Nazirlər Kabineti | “Yaşayış minimumu haqqında” qanunun təkmilləşdirilməsi | Növbəti 3 il ərzində | Əhalinin sosial müdafiəsinin gücləndirilməsi |
| **7.3.** | Yaşayışın minimumunun real dəyərinin hesablanması, pensiya aylıq və birdəfəlik sosial müavinətlərin ona uyğunlaşdırılması | Nazirlər Kabineti | Azərbaycan Respublikasında minimum istehlak səbətinin formalaşdırılması və yaşayış minimumunun hesablanması metodikasının təkmilləşdirilməsi | Növbəti 3 il ərzində | Əhalinin sosial müdafiəsinin gücləndirilməsi |
| **7.4.** | 18 yaşına qədər olan uşaqlara, hamilə qadınlara, əlillərə və 60 yaşdan yuxarı ahıl vətəndaşlara dövlət hesabına məcburi tibbi sığortanın tətbiqi | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Əsasnaməsində dəyişikliklər | Növbəti 3 il ərzində | Əhalinin sağlamlığının qorunması |
| **7.5.** | Ödənişlərə təhsilini basa vurduqdan sonra başlamaq | Milli Məclis, Mərkəzi Bank | Təhsil kreditləri haqqında | Növbəti 1 il | Təhsilə əlçatanlığın |

| | | | | | |
|---|---|---|---|---|---|
| | şərtilə tələbələrə güzəştli təhsil kreditlərinin verilməsi | | Azərbaycan Respublikasının Qanununun qəbulu | ərzində | təminatı və onun keyfiyyətinin yaşxılaşdırılması |
| **8. Milli iqtisadi təhlükəsizlik islahatları** | | | | | |
| **8.1.** | Azərbaycan Respublikasının iqtsiadi təhlükəsizliyinə mümkün təhlükələri müəyyənləşdirən amillərin monitorinqi | Nazirlər Kabineti | Milli İqtisadi təhlükəsizlik konsepsiyasının qəbulu | Növbəti 3 il ərzində | İqtisadi təhlükəsizliyə təminat |
| **8.2.** | Ərzaq təhlükəsizliyi üzrə dövlət siyasətinin təkmilləşdirilməsi | Kənd Təsərrüfatı Nazirliyi | Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair yeni Dövlət Proqramının qəbulu | Növbəti 3 il ərzində | Ərzaq təhlükəsizliyinə təminat |
| **8.3.** | Azərbaycanın strateji valyuta ehtiyatlarının qorunması | ARDNF, Mərkəzi Bank | Strateji valyuta ehtiyatlarından istifadə üzrə fiskal qaydaların qəbulu | Növbəti 3 il ərzində | Strateji valyuta ehtiyatlarının sığortalanması |